UOT: 3.33

Hüseyn Seyyab oğlu MƏMMƏDOV
Odlar Yurdu Universitetinin
Biznesin təşkili və idarə edilməsi ixtisasının
(Beynəlxalq Biznes) II kurs magistrantı
e-mail: huseyn.memmedovh@gmail.com

Elmi rəhbər: i.f.d, dos. Əfqan Əbülfəz oğlu Musayev
afqan.hunna@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.004.390

AZƏRBAYCANDA BEYNƏLXALQ ELEKTRON TİCARƏTİN MÜASİR VƏZİYYƏTİ

Xülasə

Tədqiqatın məqsədi: Azərbaycanda beynəlxalq elektron ticarətin müasir vəziyyətini təhlil etmək və onun təkmilləşdirilməsi istiqamətində elmi təkliflər irəli sürməkdir.

Tədqiqatın metodologiyası: Məqalənin elmi-metodoloji əsasını elmi tədqiqat üsulları, o cümlədən, müşahidə, məntiqi ümumiləşdirmə və funksional təhlil kimi metodlar təşkil edir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - ondan ibarətdir ki, irəli sürülən təklif və tövsiyələr Azərbaycanda beynəlxalq elektron ticarətin müasir vəziyyətinin inkişafı istiqamətində hazırlanacaq layihələrin həyata keçirilməsində faydalı ola bilər.

Tədqiqatın nəticələri: Ticarət sektorunda, logistika, ödəniş sistemləri və digər sahələrdə müəyyən çatışmayan cəhətlər var. Lakin bu problemlərin həlli istiqamətində tədbirlər planı işlənib həyata keçiriləcəkdir. Eyni zamanda, potensial bazarlara çıxış imkanları da öz müsbət təsirini göstərir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi: Tədqiqat mövzusunun araşdırılması və təhlili nəticəsində elektron ticarət sahəsinin təkmilləşdirilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təkliflər qeyd edilib.

Açar sözlər: elektron ticarət, ödəmə sistemləri, rəqəmsal biznes, elektron imza.

Giriş

XIX əsrin sonlarından başlayan informasiya və telekommunikasiya texnologiyalarının inkişafı elektron ticarətin təkamülünə zəmin yaratmışdır. Azərbaycan Respublikasında bu sahənin hüquqi bazası 2004-cü ildə "Elektron imza və elektron sənədlər haqqında" Qanunun qəbul edilməsi ilə təmin edilmişdir. Elektron imzanın mahiyyəti imza açarı sertifikatı, açıq və bağlı açar konsepsiyaları vasitəsilə izah edilir.

Azərbaycanda elektron ödəmə sistemlərinin inkişafı əvvəlcə xarici platformaların (məsələn, Web Money) üstünlüyü ilə xarakterizə olunsa da, sonradan yerli həllər (Hesab.az, EasyPay, epul.az, million.az və s.) bazarda dominant mövqe tutmuşdur. Mərkəzləşdirilmiş Hökumət Ödəmə Portalının yaradılması dövlət və kommunal xidmətlərə elektron ödənişləri olduqca asanlaşdırmışdır.

Elektron ticarət iki növə bölünür:

1. Dolayı (sifariş elektron, çatdırılma ənənəvi)
2. Birbaşa (həm sifariş, həm çatdırılma elektron).

Bu təsnifat infrastrukturun qurulması və hüquqi tənzimləmə zərurətindən irəli gəlir. Elektron ticarətin effektiv tənzimlənməsi üçün adaptiv qanunvericilik prinsiplərinin tətbiqi, texnoloji təhlükəsizlik, kiberhücumlardan müdafiə və fərdi məlumatların qorunması kimi məsələlər diqqətdədir.

Elektron ticarətin tənzimlənməsinin hüquqi aspektləri və mövcud vəziyyət

İnformasiya texnologiyaları sahəsindəki inkişaflar ənənəvi ticarət metodlarını elektron ticarətlə əvəz etmişdir. E-ticarət müəssisələrə yer, zaman və insan resurslarına qənaət etməklə rəqabət

üstünlüyü qazandırır.

Elektron ticarətin müsbət təsirləri yalnız hüquqi infrastruktur tam formalaşdıqda səmərəli olur. E-ticarət həyata keçirilmə üsuluna görə iki yerə ayrılır: **Dolayı elektron ticarət** - internet üzərindən sifariş verilən, lakin ənənəvi yollarla çatdırılan məhsulların ticarəti buraya aiddir. (məsələn, veb sayt vasitəsilə sifariş edilib karqo şirkəti ilə çatdırılan məhsullar). **Birbaşa elektron ticarət** - həm sifarişin, həm də çatdırılmanın internet üzərindən baş verdiyi rəqəmsal məhsulların ticarətidir.

Bu təsnifat e-ticarət infrastrukturunun qurulması və qanunvericiliyin formalaşdırılması zərurətindən irəli gəlir və xüsusilə də birbaşa e-ticarət tətbiqlərində hüquqi tənzimləmə ehtiyacı daha qabarıq şəkildə özünü büruzə verir. Hüquq, cəmiyyətdəki münasibətləri tənzimləyən və sanksiyalarla dəstəklənən qaydalar toplusu olmaqla, mövcud reallıqları qanun çərçivəsində idarə edir. Qanunvericiliyin yaradılması prosesi vaxt apardığından, adətən hüquqi qaydalar ictimai həyatdakı yeniliklərdən geri qalır.

Elektron ticarətin sürətli inkişafı zamanı qanuni boşluqdan irəli gələn problemlər meydana çıxmış və müzakirə obyektinə çevrilmişdir. Bu problemlərin həllində əsas çətinliklər isə bunlardır: Mövcud hüquqi qaydaların yeni problemlərə tam uyğun olmaması; Yeni yaradılan qaydaların hüquq sistemindəki bəzi fundamental prinsiplərinin sual altında qalması.

Bu səbəblərdən, elektron ticarətlə bağlı hüquqi qaydalar tam tətbiq olunmamışdır. Dövlətlər bu problemləri beynəlxalq səviyyədə həll etmək istiqamətində bir sıra işlər aparır.

Azərbaycanda 2005-ci ildə “Elektron ticarət haqqında” Qanun qəbul olunub. Bundan 3 il sonra, yəni 2008-ci ildə ilk dəfə olaraq “Visa” və “MasterCard” tərəindən xüsusi lisenziya almış yerli onlayn ödəmə sistemi yaradılıb. Sahənin dəstəklənməsi məqsədilə növbəti addım kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 11 avqust 2010-cu il tarixində 2010-2012-ci illər üçün “Elektron Azərbaycan” Dövlət Proqramı qəbul olunub. Dövlət Proqramında elektron ticarət həllərinin geniş tətbiq edilməsi prioritetlərdən biri kimi müəyyən olunub. Həmçinin, Prezidentin 21 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə “Azexport.az” portalı istifadəyə verilib. Portalın yaradılmasında başlıca məqsəd Azərbaycan Respublikasında istehsal olunan malların rəqəmsal məlumat bazasını yaratmaq və beynəlxalq elektron ticarət platformaları vasitəsilə xarici bazarlarda alıcılara təqdim etməkdir. Daha sonra Prezidentin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi təsdiqlənib [1, s.161].

Hazırda ölkəmizdə elektron ticarət bazarında ciddi inkişaf müşahidə olunur. Belə ki, Azərbaycanda elektron ticarətlə əməliyyatların həcmi 2021-ci il ərzində 7 milyard 208 milyon manat təşkil edib. Bu da 2020-ci illə müqayisədə 3 milyard 332 milyon manat (86%) artım deməkdir. Bundan başqa, Prezidentin müvaiq Sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda ixracın elektron platformalar üzərindən tətbiqinin asanlaşdırılması və e-ticarətlə məşğul olan KOB subyektlərinin sayının artırılması hədəflənib [1, s.162].

Günümüzdə respublikamızda həyata keçirilən electron dövriyyənin bütün iştirakçıları yerli bazarın təmsilçiləri olan elektron mağazaların da sayı günü-gündən artır. Azərbaycan vətəndaşlarının, eyni zamanda müxtəlif ölkələrdə yaradılmış və İnternet üzərindən fəaliyyət göstərən elektron mağazalardan istifadə etmək imkanları var. Azərbaycan Respublikasının formalaşdırdığı inzibati-hüquqi baza, müasir informasiya texnologiyalarının və elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadəsinin inkişaf səviyyəsi ticarətin bu sahəsinin daha da geniş yayılmasına münbit zəmin yaradır ki, bu da müsbət hal kimi qiymətləndirilə bilər. Onu da xüsusi qeyd etmək lazımdır ki, son illərdə respublikamız informasiya-kommunikasiya texnologiyalarının inkişaf səviyyəsinə görə MDB ölkələri arasında lider mövqeyini qoruyub saxlayır. Ölkə ərazisində internet istifadəçilərinin sayının 2 milyona yaxın olması informasiya-kommunikasiya texnologiyalarından istifadənin geniş vüsət aldığını və bu sahədə rəqəmsal potensialın sürətlə artdığını göstərən mühüm statistik göstəricilərdən biri kimi qiymətləndirilə bilər. Elektron hökumət infrastrukturu çərçivəsində kommunal ödənişlərin və bank xidmətlərinin rəqəmsal platformalar üzərindən həyata keçirilməsi

ilə başlanan proses, sonrakı mərhələdə məhsul və xidmətlərin onlayn alqı-satqısını təmin edən elektron ticarət subyektlərinin – e-mağazaların formalaşmasına və dinamik inkişafına zəmin yaratmışdır. Hazırda isə aviabiletlərin satışından tutmuş musiqi, informasiya-kommunikasiya texnologiyaları məhsulları və məişət avadanlıqlarının realizasiyasına qədər müxtəlif sahələr üzrə ixtisaslaşmış e-mağazaların daxili bazarda rolu getdikcə artmaqda və fəaliyyət miqyası genişlənməkdədir.

Elektron ticarətin Azərbaycandakı yüksəliş tendensiyasını əks etdirən əsas meyarlar

Ticarət ən qədim tarixə malik iqtisadi-maliyyə fəaliyyəti sferalarından biri kimi qiymətləndirilir. Son əsrlərdə bu sahədə yeniliklərin aparıcı xətti yeni növ əmtəələrin satış dövriyyəsinə daxil edilməsilə, o cümlədən yeni satış texnologiyalarının tətbiqi ilə xarakterizə olunur. Bu isə innovativ amillərin toplu şəkildə ticarətə tətbiq olunması ilə mümkün olub.

Elektron ticarət bir çox insan tərəfindən rahatlıqla istifadə edilən bir sahədir. Çünki məhsullara daha sürətli və rahat formada baxmağı özündə ehtiva edir. Eyni zamanda elektron ticarətin ölkəmizdə sürətli şəkildə inkişaf etməsi olduqca müsbət haldır. Azərbaycan hal-hazırda inkişaf etməkdə olan ölkə olduğu üçün bu sahədə daha çox perspektivlər formalaşacaqdır. Bundan əlavə ölkə iqtisadiyyatının günü-gündən inkişafı buna bariz nümunədir. Xarici ölkələrə ixrac edilən məhsullar və s.bunlar hər biri ölkənin iqtisadi cəhətdən inkişafına zəmin yaradan əsas amildir.

Müasir dövrdə tərəflər arasında ticarət münasibətləri ticarət-vasitəçi əməliyyatlar əsasında həyata keçirilir. Ticarət-vasitəçi əməliyyatı dedikdə, istehsalçı-ixracatçının tapşırığı ilə ondan (istehsalçıdan) asılı olmayan ticarət-vasitəçinin alqı-satqı ilə bağlı yerinə yetirəcəyi əməliyyatlar nəzərdə tutulur. İqtisadi mənada ticarət vasitəçiliyi kifayət qədər geniş anlayışdır. O, xeyli xidmət dairəsini əhatə edir. Məsələn, xarici kontragentin axtarılıb tapılması, razılaşmaların (sazişin) başa çatdırılması üçün hazırlıq, tərəflərin kreditləşdirilməsi və malın ödənilməsinə nəqliyyat-ekspeditor əməliyyatlarının həyata keçirilməsi, nəqletmədə malların sığorta olunması, gömrükxana şərtlərinin yerinə yetirilməsi, malların xarici bazara çıxarılması üzrə reklam və sair tədbirlərin görülməsi, texniki xidmətlərin həyata keçirilməsi kimi tədbirlər bu qəbildəndir. Bütün bunlar xüsusi ticarət-vasitəçi firmaların iştirakı ilə həyata keçirilir.[4, s.137]

Başqa sözlə, elektron ticarəti şərtləndirən əsas amillərdən biri innovativ yeniliklərdir. Ticarət prosesində son onilliklərdə tətbiq edilən yeni texnologiyalardan ən geniş yayılmışı isə elektron ticarətdir. Beynəlxalq elektron ticarətin önəmi, günü-gündən inkişaf etməkdə olan həyatımızda daha çox bazar və satıcı haqqında kifayət qədər geniş məlumat deməkdir. Yer və məkandan asılı olmayaraq, dünyanın istənilən bölgəsindən ehtiyacınız olan hər hansı bir məhsulu sadəcə bir “düymə”, bir “klik” vasitəsilə əldə edə bilərsiniz. Ticarətdə hələ ki, bu sistem qədər uğurlu başqa bir sistemdən danışıla bilməz.

Beynəlxalq onlayn ticarətin böyüməsi bir sıra çətin işləri sadələşdirdi. Eyni zamanda bunun nəticəsi olaraq gömrük prosedurlarının sadələşdirilməsi və transsərhəd infrastrukturun təkmilləşdirilməsi prosesləri də gücləndi. Azaldılmış əməliyyat xərcləri və ticarət sənədləşməsində səmərəliliyin artırılması ticarətin avtomatlaşdırılmasının əsas nəticələrindən biridir. Beynəlxalq elektron ticarətin bu qədər inkişaf etməsində bir çox səbəbləri göstərə bilərik. İlk olaraq insanların daha sürətli məhsullara baxmaq imkanı, eyni zamanda kartla ödəniş sistemlərinin artması və s.bütün bu hallar elektron ticarətə olan marağı daha da artırır.

Beynəlxalq ticarət müasir dövrdə həm ayrı-ayrı ölkələrin, həm də bütövlükdə qlobal iqtisadi sistemin sosial-iqtisadi həyatında mühüm və ayrılmaz bir komponentə çevrilmişdir. Müxtəlif markalı xarici avtomobillərin küçələrdə geniş yayılması, əhalinin istifadə etdiyi geyim məhsulları, məişət texnikası və digər gündəlik istehlak malları beynəlxalq ticarətin cəmiyyətin gündəlik həyatına necə dərin inteqrasiya olunduğunu aydın şəkildə nümayiş etdirir.

İqtisadçılar uzun müddətdir ki, “Dövlətlər nə üçün qarşılıqlı ticarət edirlər?” sualına cavab axtarırlar. Bu suala cavabın əsası beynəlxalq əmək bölgüsünü formalaşdıran fundamental iqtisadi amillərlə bağlıdır. Dünya ölkələri iqtisadi resurslarla - yəni təbii ehtiyatlar, əmək qüvvəsi və kapital imkanları baxımından - qeyri-bərabər şəkildə təmin olunmuşdur. Nəticədə ölkələr arasında

iqtisadi potensial baxımından ciddi fərqlər meydana gəlmişdir. Bu fərqlər xüsusilə iri maşınlı sənayenin inkişafı ilə daha da dərinləşmişdir.

İri maşınlı sənaye kütləvi istehsala əsaslandığı üçün məhsul buraxılışının həcmini həm milli, həm də beynəlxalq miqyasda əhəmiyyətli dərəcədə artırmışdır. Beləliklə, sənaye məhsullarının istehsalı ölkə sərhədlərini aşaraq beynəlxalq bazarlara çıxmağa başlamış, bunun müqabilində isə müxtəlif ölkələrdən xammal və daxildə istehsalı mümkün olmayan digər malların idxalı zərurətə çevrilmişdir. Bu proses nəticəsində ölkələr arasında sənaye və iqtisadi inkişaf səviyyələrindəki fərqlər daha da güclənmiş, istehsalın ixtisaslaşması dərinləşmiş və nəticə etibarilə qlobal ticarətin genişlənməsi və iqtisadi inteqrasiyanın sürətlənməsi üçün zəmin yaranmışdır.

Beynəlxalq ticarətin iqtisadi əsasları arasında digər mühüm faktor da mövcuddur: fərqli əmtəələrin istehsalı yalnız müxtəlif texnologiyaların və resurs strukturunun effektiv uyğunlaşdırılması ilə mümkün olur. Bu səbəbdən ölkələr konkret məhsul növlərinin istehsalı üzrə ixtisaslaşmağa meyil edir və nəticədə hər bir ölkə digərinin məhsuluna ehtiyac duyur. Bu qarşılıqlı ehtiyac isə beynəlxalq ticarətin davamlı inkişafının başlıca hərəkətverici qüvvələrindən birinə çevrilmişdir. [2, s.26-27]

XIX əsrin son illərində informasiya və telekommunikasiya texnologiyaları insanların həyatının və elektron ticarətin təkamülünə güclü təsir göstərib. Son illərdə Azərbaycan Respublikasında informasiya və kommunikasiya texnikasının istifadəsində bir çox qərarlar verilməklə, yeni işlər görülmüş və bu texnologiyaların istifadəsində əhəmiyyətli dərəcədə bir çox uğurlar qazanılmışdır. Bu isə dövlətimizdə yürüdülən siyasətin istiqamətlərindən birinə çevrilmişdir. Ölkə daxili ticarətdə müəssisələrin genişləməsi üçün və eyni zamanda sahibkarlıqla məşğul olan vətəndaşlarımızın bu sektorda inkişafları üçün onların maddi və texniki bazalarının gücləndirilməsini kifayət qədər ön plana çıxarmışdır.

Cədvəl 1.

Azərbaycanda Elektron və Kartla Ödənişlərin İnkişaf Mərhələləri (2023–2024-cü illər üzrə)

İndikator	2023-cü il göstəricisi	2024-cü il göstəricisi	Qeyd
Ümumi qeyri-nağd kart ödənişləri	49 milyard AZN	78,8 milyard AZN	2024-cü ildə 60,8% artım müşahidə olunub.
E-ticarət üzrə qeyri-nağd ödənişlər	39,1 milyard AZN	66,4 milyard AZN	2024-cü ildə 69,8% artım qeydə alınıb.
E-ticarətin ümumi kart əməliyyatlarındakı payı	79,9%	84,2%	E-ticarətin payı artmaqda davam edir.
E-ticarətin ümumi kart əməliyyatlarındakı payı (beynəlxalq ticarət daxil olmaqla)	44,4%	-	2024-cü il üçün dəqiq məlumat mövcud deyil.
Orta e-ticarət əməliyyatı məbləği	63,02 AZN	66,68 AZN	Orta məbləğdə artım müşahidə olunub.
E-ticarət əməliyyatlarının sayı	219,500	407,100	Əməliyyat sayı 84% artıb.
Debit kartların sayı	-	17,641,000	2024-cü ilin sonuna olan göstərici.
Kredit kartların sayı	-	2,255,000	2024-cü ilin sonuna olan göstərici.

İqtisadi nəzəriyyənin əsas müddəalarından biri ondan ibarətdir ki, beynəlxalq iqtisadi münasibətlər sistemində məcmu tələb və təklifin predmetini təşkil edən əsas elementlərdən biri əmtəədir. Əmtəə istehsalı isə iqtisadi prosesin yekun mərhələsini ifadə edir və adətən şəxsi istehlak üçün deyil, bazarda satış məqsədilə reallaşdırılır.

Əmtəə (commodity good) — cəmiyyətin konkret ehtiyaclarını ödəmək və mübadilə prosesində

iştirak etmək üçün nəzərdə tutulan iqtisadi dəyər daşıyıcısıdır. Bu dəyər isə əmtəənin digər mallarla mübadiləsi zamanı müəyyən olunur. İqtisadi mühitdə hər bir əmtəə üçün formalaşan tələb və təklif qarşılıqlı əlaqədə olaraq bazar tarazlığını təmin edir. [2, s.28]

Azərbaycan Respublikası 2004-cü ildə “Elektron imza və elektron sənədlər haqqında” Qanun qəbul edib. Burada qanunun əsas hədəfi rəqəmsal sənədlərdə elektron imzanın istifadə olunması qaydalarının hüquqi əsaslarını müəyyən etməkdir. Başqa sözlə desək, bu qanun elektron sənədlərdə tətbiq olunan rəqəmsal imzanın kağız daşıyıcılarda qoyulan adi imza ilə eyni hüquqi qüvvəyə malik olmasını təmin edən prosedurları müəyyən edir.

Azərbaycanın elektron ticarət ekosistemində ödəmə mexanizmlərinin təkamül yolu xüsusi maraq doğurur. İlkin mərhələdə xarici mənşəli platformalar üstünlük təşkil edirdi. Buna misal olaraq Rusiya bazarından çıxan və 2010-cu ildə Bank Standart ilə əməkdaşlığa başlayan Web Money sistemini misal göstərmək olar. Lakin son illərdə yerli texnoloji həllərin sürətli inkişafı sayəsində milli ödəmə infrastrukturu formalaşmışdır.

Müasir dövrdə Azərbaycan bazarında Hesab.az, EasyPay, epul.az, million.az və AzeriCard.com kimi yerli platformalar dominantlıq təşkil edir. Bundan əlavə, dövlət sektorunda elektron ödənişlərin inteqrasiyası istiqamətində mühüm addımlar atılmışdır. Mərkəzləşdirilmiş Hökumət Ödəmə Portalının yaradılması vətəndaşların dövlət qurumlarına və kommunal xidmətlərə ödənişlərini rəqəmsal mühitdə həyata keçirməsinə imkan yaradıb. Bu transformasiya prosesi ödəniş sistemlərinin coğrafi diversifikasiyası və texnoloji suverenliyin gücləndirilməsi tendensiyasını özündə əks etdirir. Elektron iqtisadiyyatın hüquqi tənzimlənməsi sisteminin təkmilləşdirilməsi prosesində əsas hədəf yalnız rəqəmsal biznes mühitinin strukturlaşdırılması deyil, həm də innovativ sahibkarlıq fəaliyyətinin dinamik inkişafını stimullaşdıran balanslaşdırılmış normativ bazanın yaradılması təşkil edir. Bu kontekstdə, mütərəqqi qanunverici mexanizmlərin formalaşdırılması e-kommersiya subyektlərinin fəaliyyətini əngəlləyən bürokratik maneələri aradan qaldırmaqla yanaşı, onların inzibati yükünü optimallaşdırmağa yönəldilib.

Paralel olaraq, rəqəmsal iqtisadi ekosistemdə istehlakçı hüquqlarının etibarlı müdafiə sisteminin qurulması, transaksiya şəffaflığının təmin edilməsi və vergi intizamının möhkəmləndirilməsi mühüm əhəmiyyətə malikdir. Qlobal təcrübə göstərir ki, elektron ticarət platformalarında təhlükəsizlik standartlarının implementasiyası, kiberhücumlardan qorunma mexanizmlərinin işlənib hazırlanması və fərdi məlumatların mühafizəsi milli səviyyədə prioritet məsələlər sırasındadır. Eyni zamanda, virtual məkanda ticarət əməliyyatlarının etik prinsiplərə uyğunluğu, sosial məsuliyyət və milli-mənəvi dəyərlərin qorunması tənzimləyici orqanların diqqət mərkəzində saxladığı məsələlərdən biridir. Beynəlxalq təcrübəyə əsaslanaraq demək olar ki, elektron ticarətin effektiv tənzimlənməsi modeli texnoloji tərəqqinin sürətli tempini nəzərə alan adaptiv qanunvericilik prinsiplərinə əsaslanmalı və yeniliklərə açıq olmalıdır. Bu yanaşma rəqəmsal biznes modellərin çevikliyini qorumaqla dövlət və özəl sektor arasında konstruktiv əməkdaşlıq münasibətlərinin inkişafına böyük zəmin yaradır.

Elektron ticarətin tənzimlənməsində hüquqi aspektlər

İnformasiya texnologiyaları sahəsindəki inkişaflar ənənəvi ticarət metodlarını elektron ticarətlə əvəz etmişdir. E-ticarət müəssisələrə yer, zaman və insan resurslarına qənaət etməklə rəqabət üstünlüyü qazandırır.

Bu təsnifat e-ticarət infrastrukturunun qurulması və qanunvericiliyin formalaşdırılması zərurətindən irəli gəlir və xüsusilə də birbaşa e-ticarət tətbiqlərində hüquqi tənzimləmə ehtiyacı daha qabarıq şəkildə özünü büruzə verir. Hüquq, cəmiyyətdəki münasibətləri tənzimləyən və sanksiyalarla dəstəklənən qaydalar toplusu olmaqla, mövcud reallıqları qanun çərçivəsində idarə edir. Qanunvericiliyin yaradılması prosesi vaxt apardığından, adətən hüquqi qaydalar ictimai həyatdakı yeniliklərdən geri qalır.

Bu səbəblərdən, elektron ticarətlə bağlı hüquqi qaydalar tam tətbiq olunmamışdır. Dövlətlər bu problemləri beynəlxalq səviyyədə həll etmək istiqamətində bir sıra işlər aparır.

Azərbaycan Respublikasında elektron ticarət sahəsində fəaliyyət göstərən fiziki və hüquqi

şəxslərin hüquq və vəzifələri yalnız milli qanunvericilik əsasında məhdudlaşdırıla bilər. “Elektron ticarət haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, bu sahədə fəaliyyət göstərmək üçün ümumilikdə xüsusi razılıq (lisenziya) tələb olunmur. Bununla belə, bəzi spesifik fəaliyyət sahələrində elektron ticarətin həyata keçirilməsi üçün lisenziya alınması qanunvericiliklə nəzərdə tutulmuşdur. Belə hallarda subyektlər yalnız aidiyyəti icazəni (lisenziyanı) əldə etdikdən sonra fəaliyyət göstərə bilərlər. Sözügedən qanun maliyyə bazarı, sığorta və qiymətli kağızlar bazarı istisna olmaqla, elektron ticarətin bütün sahələrinə şamil edilir. Bu istisna sahələrdə elektron ticarətlə bağlı münasibətlər isə digər normativ-hüquqi aktlarla tənzimlənir.

Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyası çərçivəsində xarici ticarət əməliyyatlarının – xüsusilə idxal və ixracın – hüquqi tənzimlənməsi istiqamətində zəruri hüquqi baza formalaşdırılmışdır. Bu sahədə Milli Məclis tərəfindən müvafiq qanunlar qəbul olunmuş, Prezident fərman və sərəncamları imzalanmış, Nazirlər Kabineti tərəfindən isə müvafiq normativ-hüquqi sənədlər təsdiqlənmişdir. İqtisadi tədqiqatlar göstərir ki, Azərbaycanın gələcək iqtisadi inkişafı beynəlxalq iqtisadi münasibətlərin intensivliyindən və keyfiyyətindən əhəmiyyətli dərəcədə asılı olacaqdır.

Azərbaycanın geosiyasi və geoiqtisadi baxımdan əhəmiyyətli bir mövqedə – müxtəlif iqtisadi və siyasi maraqların kəsişdiyi ərazidə yerləşməsi gömrük sisteminə strateji status qazandırır. Bu baxımdan, gömrük tənzimlənməsi yalnız iqtisadi deyil, həm də siyasi təhlükəsizlik baxımından vacib əhəmiyyət daşıyır. Daxili bazarın qorunması və idxal-ixrac əməliyyatlarına nəzarət vasitəsilə iqtisadi suverenliyin təmin olunması, həmçinin gömrük siyasətinin səmərəli həyata keçirilməsi istiqamətində Azərbaycan gömrük orqanlarına böyük məsuliyyət düşür.

Beynəlxalq münasibətlər sistemində dövlətlərarası əməkdaşlığın yeni formalarının yaradılması və mövcud sahələrin dərinləşməsi gömrük sferasındakı münasibətlərin daha geniş və kompleks yanaşma tələb etdiyini göstərir. Bu kontekstdə gömrük sistemi bazar münasibətlərinin formalaşması, tənzimlənməsi və Azərbaycan iqtisadiyyatının qlobal iqtisadiyyata inteqrasiyası prosesində əsas mexanizmlərdən biri kimi çıxış edir. [3, s.85]

Nəticə

Araşdırma nəticəsində məlum olmuşdur ki, Azərbaycanda beynəlxalq elektron ticarət sürətlə inkişaf etsə də, logistika, ödəniş sistemləri və digər sahələrdə müəyyən problemlər vardır. İnternet istifadəçilərinin artması, rəqəmsal ödəmə sistemlərinin genişlənməsi və logistika sahəsindəki inkişaflar bu sahəyə müəyyən dəstək göstərsə də, infrastruktur, hüquqi çərçivə və gömrük proseduralarında mövcud olan bəzi məhdudiyyətlər beynəlxalq səviyyədə rəqabət qabiliyyətini olduqca aşağı salır. Eyni zamanda, potensial bazarlara çıxış imkanları da inkişaf edir və olduqca genişlənir. Yerli sahibkarların qlobal bazara inteqrasiyası üçün rəqəmsal bacarıqların gücləndirilməsi, təlim proqramlarının təşkili və dövlət dəstəyinin gücləndirilməsi olduqca vacib amildir. Gələcəkdə Azərbaycanın beynəlxalq elektron ticarətdə daha geniş rol oynaması üçün sistemli yanaşma, effektiv qanunvericilik və innovativ texnologiyaların tətbiqi əsas şərtlərdən biridir.

ƏDƏBİYYAT

1. V. Qasımlı, M. Talıbova, G. Qulıyeva, A. Museyibov, F. Mirzəyev, A. Qədəşov, G. Əhmədova. “Rəqəmsal iqtisadiyyat”. Bakı, 2023
2. A. Əsədov, R. Məmmədov. “Elektron ticarət və rəqəmsal iqtisadiyyat” Bakı, 2023; Səh 162.
3. Qəribov Asəf, Əzizov Anar, Əhmədova Sədaqət. “Beynəlxalq Ticarət Əməliyyatları” Dərs Vəsaiti Bakı – 2017;
4. Biznesin təşkili və idarə edilməsi, dərslik, Bakı – 2011.
5. https://odero.az/az/news/azerbaycanda-eticaretin-inkishafi/

Huseyn Seyyab Mammadov
Second year Master's student of the Business Organization and Management (International Business) specialty of Odlar Yurdu University
Email: huseyn.memmedovh@gmail.com

Scientific supervisor: i.f.d, assoc. Prof. Afgan Abulfaz Musayev
Email: afqan.hunna@gmail.com

The current status of international electronic trade in Azerbaıjan

Summary

Purpose of the study: The purpose of the study is to analyze the current state of international e-commerce in modern Azerbaijan and put forward scientific proposals for its improvement.

Methodology of the study: The scientific and methodological basis of the article is scientific research methods, including methods such as observation, logical generalization and functional analysis.

Applied significance of the study: is that the proposed proposals and recommendations can be useful in the implementation of projects to be developed in the direction of the development of the current state of international e-commerce in Azerbaijan.

Results of the study: There are certain shortcomings in the trade sector, logistics, payment systems and other areas. However, an action plan will be developed and implemented to solve these problems. At the same time, the opportunities for access to potential markets also have a positive effect.

Originality and scientific novelty of the research: As a result of the investigation and analysis of the research topic, scientifically substantiated proposals were made for improving the field of electronic commerce.

Key words: electronic commerce, payment systems, digital business, electronic signature

Гусейн Сейяб оглу Мамедов
Университет Одлар Юрду, специальность «Организация и управление бизнесом (международный бизнес)» Студент 2 курса магистратуры
Электронная почта: huseyn.memmedovh@gmail.com

Научный руководитель: к.ф.-м.н., доц. Проф. Афган Абульфаз оглу Мусаев
Электронная почта: afqan.hunna@gmail.com

Текущее состояние международной электронной торговли в Азербайджане

Резюме

Цель исследования: Целью исследования является анализ текущего состояния международной электронной коммерции в современном Азербайджане и выдвижение научных предложений по ее улучшению.

Методология исследования: Научно-методологической основой статьи являются научные методы исследования, в том числе такие методы, как наблюдение, логическое обобщение и функциональный анализ.

Прикладное значение исследования: Предложенные предложения и рекомендации

могут быть полезны при реализации проектов, которые будут разрабатываться в направлении развития текущего состояния международной электронной коммерции в Азербайджане.

Результаты исследования: Имеются определенные недостатки в сфере торговли, логистики, платежных систем и других областях. Однако будет разработан и реализован план действий по решению этих проблем. В то же время возможности выхода на потенциальные рынки также имеют положительный эффект.

Оригинальность и научная новизна исследования: В результате исследования и анализа темы исследования были сделаны научно обоснованные предложения по совершенствованию сферы электронной коммерции.

Ключевые слова: электронная коммерция, платежные системы, цифровой бизнес, электронная подпись